# CƏNAB BAŞ LEYTENANT

*1995-ci il 28 oktyabr günü Ulduz və Nəriman Nərimanov metro stansiyalarında qəza nəticəsində onlarla insanı xilas edən və qəhrəmanlıqla həlak olan baş leytenant, ölümündən sonra Milli Qəhrəman adına layiq görülən Babayev Çingiz Adil oğlunun xatirəsinə*

**Bu gün heç vaxt üzünü görmədiyim və bəlkə də heç vaxt görə bilməyəcəyim bir anayla söhbət edəcəm. Ona verəcəyim suallar cavabsız və havadan asılı qalacaq və bu an sadəcə faktlar və yaddaş danışacaq. Tarixin yaddaşı, hadisələrin yaddaşı, bir də bəlkə heç vaxt səbəbini bilməyəcəyimiz səbəblər.**

Külək havada hansısa xatirəni yelləncək kimi yelləcək, zaman öz çarxında fırlanacaq və bir yel kimi o anaya verəcəyim sual havada süzüb, onun qulaqlarına yetişəcək.

**- Qəhrəmanlar necə doğulur ana?..**

**- Həmin gün yaddaşında qalıbmı, bəlkə yadındadı nə yemişdin, nə içmişdin, bəlkə o günün havasında başqa dünyanın cənnət qoxusu vardı, bəlkə elə həmin gün hiss etmişdin nə zamansa...**

Bağışla, ən çətin sözün qarşısındayam, onu nə deyə bilirəm, nə də keçə...

**- Ondan qalan təsəlli?..**

Sonuncu suala bir ana fəhmiylə cavab verməyə çalışacam.

Yəqin ki, bu an ananın zəifləyən gözləri otaqda gəzib, dolabda dayanacaq və o an dərk edəcəm ki, mən bir hərbçi anasıyla söhbət edirəm və o an bu qadının böyüklüyü qarşısında söz belə tapmayacam, çünki dünyanın qarmaqarışıq zamanında havadan qan iyi gələn dövründə yeganə oğul övladının hərbçi olmağına etiraz etməyən ana, dünyanın ən müqəddəs anasıdı və o hərbçidən yəqin ki, təsəlli üçün dolabın bir küncündə bu dünyada əməlləri ilə birgə bir əsgər mundiri yadigar qalar...

**Cənab baş leytenant.**

Tarix bizlərə dünyanın ən möhtəşəm hərbçilərini daima tanıtdırıb. Hər birinin adı qarşısında qısa da olsa xarakterinə, siyasətinə görə bir açıqlaması mütləq olub.

**Napaleon: - Səhvləri ilə birgə Fransanın fəxr yeri.**

**Stalin: - Qəddar, qaniçən və Alman faşizminə qalib gələn fateh.**

**Hitler: - Dünyanı lərzəyə gətirən və öz ideyalarına doğru hətta ilk günlərində ona inanıb, dəstək olan insanların qanını tökməkdən çəkinməyən şizofrenik.**

Bu siyahını artırmaq olar, bir balaca yaddaşı oyatmaq yetər.

Mənim üçün hərbi geyim müqəddəs olmağı ilə yanaşı, eyni zamanda Vətənin sərhədlərindəki bizi qoruyan gözəgörünməz divardı. Hərbçiləri yetişdirən, hərbin sirlərini öyrədən isə bəlkə də Sokrat qədər dahi filosofdur fikrimcə.

Çingiz Adil oğlu Babayevi tanıdığım vaxt o hərbçi deyildi, Politexnik İnstitutunda təhsil alırdı. Bizə qonaq gəlmişdi. Gənc, şən və arzu dolu və bir az da utancaq...

Xalam oğlu ilə Politexnikdə bir təhsil alırdılar. Atamla tanış olmaq istəmişdi. Atam onu əziz qonağı kimi qarşılamışdı. Söhbətləri o qədər maraqlı idi ki, onlara çay süzüb aparsam da atamın kabinetindən çıxa bilməmişdim. Söhbətin mövzusu Şah İsmayıl, Çaldıran döyüşü idi. Atam danışır, Çingiz və xalam oğlu ona maraqla qulaq asır, mən də bu üçlüyə qoşulub, ata söhbətlərini yaddaşıma köçürürdüm.

Çingizlə ikinci dəfə təsadüfən "Azərbaycan" kinoteatrında olmuşdum. Çox səmimi görüşmüşdük. Dostları ilə Fellininin filminə baxmağa gəlmişdi. Eyni seansda filmə baxıb, əziz dostlar kimi ayrılmışdıq.

Üçüncü təsadüfi söhbətimiz isə 1994-cü il olardı, hansısa



işlə bağlı Cəmşid Naxçıvanski adına liseyə zəng edirəm, mövzu ilə bağlı kiminlə danışa biləcəyimi soruşuram. Mənə nömrə verirlər. Zəng edib, özümü təqdim edirəm. Dəstəyin o başındakı insan gülür.

- Bacı...

Onu tanıyıram.

- Çingiz!..

Onda bilirəm ki, Çingiz artıq öz yolunu müəyyən edib.

Bu yazını yazmağa hazırlaşarkən onunla bağlı nə varsa yaddaşıma toplamağa çalışıram. Atamla bağlı danışırıq. Mənim həyatımla maraqlanır. O vaxt özəl universitetlərin birində dərs deyirdim. Bu onu sevindirir. Mənə isə xoş gələn o olur ki, gənc hərbçilərimizi məhz Çingiz kimi saf, vətənpərvər, ürəyi daima gözəl arzularla döyünən biri yetişdirəcəkdi. Fikrimi onun özünə də demişdim. Beləcə, telefonda ondan - cənab baş leytenantdan gülə-gülə ayrılmışdım. Toyuna çağırmasan inciyərəm demişdim.

**Dördüncü görüş...**

**1995-ci il, 28 oktyabr.**

**Ulduz və Nəriman Nərimanov metro stansiyaları arasında baş verən qəza...**

**Çingiz o qəzada neçə-neçə insanı xilas edir. Əynindəki hərbi mundir səbəbkardır ki, insanlar ondan imdad istəsin...**

Yəqin o gün də adi günlərdən deyildi. Havadan yəqin ki, ölüm və xəyanət qoxusu gəlirmiş. Yəqin həmin gün Çingiz üçün də adi gün deyilmiş. Evə tələsirmiş, hətta qatara səhv minibmiş və qəfil qəza...

O Qarabağa döyüşə də könüllü getmişdi. Bu qəza onu qorxutmazdı, qorxmadı da.

Yadımdadı mən ona demişdim, bizi qoruyan sənin kimi qardaşımdısa rahat yataram. Hər şey gözəl olacaq bacı, demişdi. Gözəl olacaq...

Onunla dördüncü görüşümüz haqqında yazılanlar oldu...

Bu yazılar yaddaşıma qırıq-qırıq yazıldı...

İrəvan xanı Rəşid xan Makinskinin nəticəsi...

Qəzadan onlarla insan xilas etdiyinə görə...

Baş leytenant Çingiz Babayev Milli Qəhrəman adına ölümündən sonra layiq görülüb...

Qulaqlarımda səslər əks-səda verir. Sözlər göz yaşlarında boğulur.

**1994-cü ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Sərəncamı ilə Cəmşid Naxçıvanski adına liseyə göndərilib. Əvvəl taqım komandiri, daha sonra bölük komandirinin siyasi işlər üzrə müavini vəzifəsinə təyin olunub...**

**Çingiz Babayevlə birgə insanları xilas edən qəhrəman kursantlar Ruslan İsayev, Samir Məmmədov, Nicat Səfərov "İgidliyə görə" medalı alıb...**

**Çingiz Babayev qəzadan əziyyət çəkən insanları xilas edərkən özü qəhrəmanlıqla həlak olub...**

İnanıram ki, o an o özünü bir saniyə belə olsun düşünməyib. Çingiz kimi insanlar xırda hisslərin fövqündən çox-çox yüksəklərdə dururlar.

**Doğum tarixi: 1964-cü il, 2 oktyabr...**

**Qəhrəman kimi doğulduğu gün: 1995-ci il, 28 oktyabr...**

**Subay...**

Yeganə oğul payı...

Ondan qalan təsəlli dolabda qalan əsgər mundiri...

Xilas etdiyi insanlar...

Yaddaşımızda yaşayan səmimiyyəti, xoş təbəssümü...

Bu gün Vətəni qoruyan hərbçilərimizə öyrətdikləri...

Barıt qoxulu yollardan keçib, Qəhrəmanlıq zirvəsində dayanan Çingiz Babayev...

Bu gün anım günündə sənin haqqında xəyalən ananla, sonra da ağ kağız və qələmlə danışdım mənim, Qəhrəman qardaşım. Vətən sizin kimi xalq, el üçün özünü fəda edən şəhid qardaşlarımızın, oğullarımızın qan töküb, qovuşduğu torpaq olduğu üçün bir daha Vətəndi...

Qəhrəman kimi yenidən doğulduğunun günün mübarək, mübarək insan...

**Yeganə KƏRİMZADƏ**